**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**AKADEMİK ZİYA BÜNYADOV ADINA ŞƏRQŞÜNASLIQ İNSTİTUTU**

# Şərqşünas alim beynəlxalq jurnalda erməni vandalizmindən yazıb

**Bakı şəhəri** **2 oktyabr 2024-cü il**

AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Sübhan Talıblının “Historical and cultural heritage of Azerbaijan destroyed as a result of Armenian aggression” (Erməni təcavüzü nəticəsində dağıdılmış Azərbaycanın tarixi və mədəni irsi) adlı məqaləsi Türkiyədə nəşr olunan “Vakanüvis - Uluslararası Tarih Araştırmaları Dergisi”ndə ingilis dilində çap olunub.

Məqalədə Ermənistan Respublikasının və onu dəstəkləyən qüvvələrin hərtərəfli dəstəyi ilə təcavüzü nəticəsində dağıdılmış Azərbaycanın tarixi, maddi-mənəvi abidələri araşdırlır. Eyni zamanda Qarabağın tarixi, Qarabağ xanlığı, Qarabağın icitmai-siyasi, sosail-iqtisadi, mədəni-mənəvi vəziyyəti, Ermənistanın Azərbaycanın tarixi, mədəni-mənəvi abidələrinə qarşı terroru, İrəvanda erməni vandalizmi, işğal zamanı Qarabağda dağıdılmış türk-müsəlman, Alban abidələri, erməni vandalizmi nəticəsində dağıdılmış maddi-mənəvi abidələrlə bağlı beynəlxalq və regional təşkilatların mövqeyi, Azərbaycan Respublikasının atdığı addımlar və s. məsələlər tədqiq və təhlil edilir.

**Vüqar Məmmədov,**

***AMEA-nın Şərqşünaslıq İnstitutunun ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaşı,***

***filologiya üzrə fəlsəfə doktoru***

**Əlaqə:**

**(050) 252 04 73**

**(055) 644 99 87**

**azerb.sharq@gmail.com**